**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**RUŞAN ƏLƏMŞAH OĞLU RUŞANZADƏ**

# SİYASİ MARAQ VƏ SİYASİ ƏXLAQ: QARŞILIQLI ƏLAQƏ PROBLEMİ

İxtisas: 5908.01 - Siyasi nəzəriyyə

Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyasının

**A V T O R E F E R A T I**

**BAKI - 2013**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun "Politologiya və Siyasi sosiologiya" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **fəlsəfə üzrə elmlər doktoru, professor**
**Əlikram Mirhəsən oğlu Tağıyev**

**Rəsmi opponentlər:** **fəlsəfə üzrə elmlər doktoru, professor**
**Adil İskəndər oğlu Əsədov**

**siyasi elmlər üzrə fəlsəfə doktoru**
**Fuad İlyas oğlu Babayev**

**Aparıcı təşkilat:** **Bakı Dövlət Universiteti**
**("Politologiya və sosiologiya" kafedrası)**

Müdafiə 2014-cü il "_17__"01_ saat___ -da Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu nəzdində D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı, Az-1143, H.Cavid prospekti 31, AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, 9-cu mərtəbə

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" ______________ 2013 -cü ildə göndərilmişdir.

AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq
İnstitutu nəzdində D.01.115
Dissertasiya Şurasının Elmi katibi
*fəlsəfə üzrə fəlsəfə doktoru:* **Sevinc Arif qızı Həsənova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** İnsan mənəvi dəyərləri ilə başqa varlıqlardan fərqli olaraq ictimai varlıqdır və özünün fərdi-ictimai-siyasi maraqlarını təbii olaraq ağıl və vicdanla həyata keçirməyə, tənzimləməyə çalışır. Bunun hüquqi reallığı isə yalnız insan azadlığına təminat verən ədalətli dövlət şəraitində mümkün olur ki, bu da siyasi marağın həyata keçirilməsində siyasi əxlaqın zəruriliyini və aktuallığını əbədiləşdirir. Bu mətləb Azərbaycan Konstitusiyasının 12-ci maddəsinin I bəndində açıq-aydın surətdə öz əksini tapmışdır. "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir".[1] Qeyd etmək lazımdır ki, Azərbaycanda aparılan modernləşmə siyasi xətti və maddi kapitalın insan kapitalına çevrilməsi prinsipi də yuxarıda göstərilən maddədən irəli gələn hadisədir.

Bəşər tarixinin hər bir dönəmində dövlətqurma və idarəetmə siyasəti, öz qabiliyyətləri ilə başqalarından seçilən zəkalı insanların, müdrik şəxsiyyətlərin ən ciddi problemi olmuşdur. Bu istiqamətdə meydana gələn suallar, maneələr, çətinliklər insanların fərqli düşüncəsini əks etdirən müxtəlif siyasi maraqlarından yaranmışdır. Bu baxımdan dünyanın hazırkı mənzərəsinin necə olması olduqca düşündürücüdür. Məsələn, F. Moro Defarj qeyd edir ki, "dünya cəngəllikdir. Dövlətlər sağ qalmaları üçün daim mübarizədə olan qeyri-bərabər heyvanlardır".[2] Yaxud M. Parenti vurğulayır ki, "kapitalist dövləti öz represiya aparatını cəmiyyətdəki mütərəqqi prosseslərə qarşı yönəldir. Bu aparat bir başa olaraq mütəşəkkil cinayətkarlığa qarşı deyil, mütəşəkkil başqa cür düşünməyə qarşı istiqamətlənib".[3] Siyasi əxlaqı aktual və vacib edən cəhətlərdən biri də məhz elə bu məqamdır. Digər tərəfdən də bu gün dünyada nizam-intizam pozulur, azadlıq və ədalət meyarları sıradan çıxır. Bunun nəticəsində isə cəmiyyətin çox hissəsi sarsılır, həlli müşkülə çevrilən bir çox hadisələr, hətta qarşısı alınmaz cinayətlər meydana gəlir. Elə hazırkı dünyadakı yaranan siyasi mafiyalaşma, kütləvi qırğın silahları, atmosferin zəhərlənməsi və ətraf mühitin məhvi, ərzaq disbalansı, planlı qlobal böhranlar, intiharlar, narkobiznes və narkomaniya, insan alveri, kütləvi depressiya və kütləvi psixoz fenomeni faktları və s. buna nümunədir. Bu sadalanan və sadalanmayanların hamısı "mənəviyyatsız və

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası. 2009. s 8.
[2] Filip Moro Defarj. Geopolitikaya giriş. Bakı: Qanun, 2010. s 254.
[3] Parenti M. Seçilmişlər üçün demokratiya . Baki: 2008, s 220.

əxlaqsız siyasətin" meydana gətirdiyi acı nəticələridir ki, insan anlayışının məhvinə xidmət edir. Elə bu səbəbdən də "bu gün dünya böyük qayğılar, təhdidlər və narahatlıqlar içərisindədir. Bütün bunların mərkəzində isə insaniyyətə edilən qəsdlər, təcavüzlər dayanır... İndiki bəşəriyyət üçün ən zəruri islahat məhz insanlıq və xeyrxahlıq islahatıdır, çünki ali varlıq sayılan insan ilk növbədə buna möhtacdır. İnsaniyyət bəşəriyyətin əxlaqi sərvətlərinin qızıl fondunu təşkil edir. Qədim dövrün əxlaq peyğəmbəri Sokratdan soruşanda ki, "insanda ən çox nəyi qiymətləndirirsən?" tərəddüd etmədən cavab verir: "insaniyyəti!". [4]

Siyasi maraqların konsturuktiv realizasiyası üçün siyasi əxlaq nəinki aktualdır, hətta zəruri və vacibdir. Belə ki, siyasi əxlaq prinsipi siyasi elmin özündən irəli gələn təxirəsalınmaz tələbat olaraq qarşıya çıxır. Məsələn, "müasir epistemiologiyanın başlıca məqsədi insanların dünyagörüşündə, təfəkkür tərzi və fəaliyyət üslubunda demokratik dəyərlərə həssaslığı, rəğbət hissini gücləndirməkdən, qarşılıqlı hörmət və tələbkarlığı, nizam və məsuliyyəti artırmaq vasitəsilə əsas hüquq və azadlıqlardan istifadəni reallaşdırmaqdan, lokal, regional və qlobal miqyaslarda harmoniyanı, tolerantlığı, humanizmi gücləndirməkdən ibarətdir. Bu hədəfə doğru fəaliyyətdə "məqsəd vasitəyə bəraət qazandırır" prinsipi yox, "təqdirəlayiq məqsəd öz fəzilətli vasitələrilə möhtəşəmdir!" ideyası, yəni mənəvi-etik tələblərin vacibliyi rəhbər tutulur". [5]

Siyasətin əxlaqiliyi nə dərəcədə yüksəlirsə elmiliyi də o dərəcədə inkişaf edir. Eyni zamanda bu elə bir qarşılıqlı prosesə çevrilir ki, siyasətin elmiliyinin inkişafı onun əxlaqiliyinin keyfiyyətini yüksəldir. Bu konteksdən yanaşdıqda siyasi əxlaqın aktuallığı təkcə praktiki deyil, həm də elmi-nəzəri və metodoloji olaraq labüdləşir. Belə ki, "müasir dünyada siyasətə əxlaq tələblərinin institutlaşdırılmasının əsas istiqaməti insan hüquqlarının qorunması, siyasətin sosial istiqaməti, həyat fəaliyyətinin demokratik prinsiplərinin təsdiqi, cəmiyyətin hüquqi əsaslarının möhkəmlənməsidir. Siyasət həmişə öz fəaliyyəti və onun nəticələrinin əhəmiyyətinə görə mənəviyyat və cavabdehlik sferasında olmalıdır".[6]

"İnsanlar valideynlərindən daha çox öz dövrünün siyasi rəhbərinə oxşayar" [7], başqa sözlə, siyasətçilər ictimayət üçün bir nümunədir arqumentini

---

[4] Müasir fəlsəfə və Azərbaycan: Tarix, nəzəriyyə, tədris. Bakı: "Elm", 2011, s 8.
[5] Yenə orada s 13.
[6] Əliyev R. Cəmiyyətdə əxlaq sipərləri çox kövrəkdir. Mediaform. az.
[7] İmam Əli. Nəhcül Bəlağə. Bakı: Nurlar, 2007, s 638.

rəhbər tutsaq və nəzərə alsaq ki, cəmiyyəti, dövləti idarə edən, ölkənin, xalqın gündəlik taleyində daha çox məsuliyyət daşıyan siyasətçilərdir, nəticə alınır ki, məhz elə siyasətçilər daha çox əxlaqi keyfiyyətlərə malik olmalıdır. Çünki siyasətçi profili, xüsusən, hakimiyyət sistemi xalqın seçimi və dəstəyinə görə təşəkkül tapır. Əgər xalq öz siyasi həyatında istiqamətsizlik və metodsuzluq vəziyyətindədirsə siyasətçinin də belə olması qaçılmazdır. Ona görə də siyasətlə əxlaqın nisbətində əxlaqı qiymətləndirici meyar olaraq rəhbər tutmq dünyada sülhün, azadlıq və ədalətin bərqərar olmasında həlledicidir. Xüsusilə, hazırkı dünyada beynəlxalq hüququn işləmədiyi bir vəziyyətdə destruktivliyin yaratdığı şəraiti aradan qaldırmaq istiqamətində zəruri və qəti olaraq təxirə salınmazdır.

Beləliklə, mövzunun xüsusi tədqiqat problemi kimi seçilməsinin aktuallığını aşağıdakı müddəalarla əsaslandırmaq olar:

1. Siyasi maraqların realizasiyası prosesində siyasətdə insan amilinin uca tutulması, konstruktivlik və qanunun aliliyinin qorunması prinsipinin mövcudluğu üçün siyasətin əxlaqla tənzimlənməsi;

2. XX əsrin bəşər tarixində ən ziddiyyətli, zor tətbiq edilən, imperiyanın ideoloji aparatların mafiyalaşması ilə kütlə psixologiyasının xarakterik cəhətlərini və doqmatik şüur elementlərini özündə birləşdirən totalitar-despotik dövr kimi yadda qalması və bu günədək şüurlarda müəyyən təsirlərini saxlaması;

3. Hazırda qlobaliaşmanın praktiki olaraq fəallaşması nəticəsində anqlosakson liberalizminə söykənən superkapitalizmin neo-imperiya elementlərini formalaşdırması və dünya siyasətini istiqamətləndirən və özündən asılı saxlayan neft strategiyasından irəli gələn geosiyasi maraqlar, bunun fonunda Şərq-Qərb qarşıdurması və dinc əhalinin, qadınların, uşaqların üzərində kütləvi qırğın silahlarının təcrübədən keçirilməsi;

4. Hətta ən ali qurum olan BMT-in təcavüzkar, işğalçı dövlətə qarşı qəbul etdiyi qətnamələrin yerinə yetiriməsi məsələsindəki qətiyyətsiz mövqeyi, dünya səviyyəli siyasi nümayəndələrin ikili-standartlıq fəaliyyəti və s. bu kimi hadisələrdən irəli gələn riyakarlıq və qeyri-əxlaqi siyasət faktları ilə beynəlxalq hüququn amorf və formallığı;

5.Yalnız orta təbəqəyə mənsub insanların deyil, hətta tanınmış şəxsiyyətlərin dünya siyasəti haqqında və siyasətçilərdən əxlaq gözləməyin absurdluğu barədə formalaşan olduqca bədbin rəylərinin çoxalması;

6. Müasir informasiya əsrində demokratik dəyərlərlə qapalı tipli cəmiyyətdən açıq tipli cəmiyyətə keçiddə tolerantlığa, qarşılıqlı anlaşma və qarşılıqlı məsuliyyətə əsaslanan (dövlətin şəxsiyyət üçün olmasını, hakimiy-

yətin hakimiyyət üçün yox, ədalət üçün mövcudluğunu qoruyan) milli dövlətlərdə hüquqi dövlət perspektivinin gücləndirilməsi;

7. "Azərbaycançılıq ideologiyası"nın Azərbaycan xalqının ictimai-siyasi taleyindəki rolunun dərk edilməsi, ümummilli siyasi mühitin mövcudluğunu təmin edən ideologiya olaraq onun tətbiqi siyasətdə realizasiyası siyasi əxlaq problemini aktuallaşdıran mühüm amillərdir.

**Problemin işlənmə dərəcəsi.** Dissertasiya yazılarkən mövzu ilə bağlı Azərbaycanda, Türkiyədə, Rusiyada, Avropa və ABŞ -da çap edilmiş kitab və məqalələr tədqiqat işinə yararlılığı dərəcəsinə əsasən, öyrənilmiş və təhlil edilmişdir.

Siyasi maraq və siyasi əxlaqın qarşılıqlı əlaqələri haqqında ideyalar siyasi elmin inkişafında böyük rolu olan filosofların əsərlərində öz əksini tapmışdır. "Demək olar ki, fəlsəfə varsa dünyanın bütövlüyə, səadətə döğru gedişi, siyasətə və əxlaqa can atması var. Aristotel əxlaq və siyasət problemlərini elm adlandıraraq birləşdirirdi. O, siyasətlə əxlaqın qarşılıqlı əlaqəsini nizam-intizama aid edirdi. Bundan belə qənaətə gəlmək olar ki, əxlaq və siyasət hərəkətin nümunəsi kimi özünü göstərir" .[8]

Siyasi-əxlaqi konsepsiyalar əvvələ əsaslanmaqla daha çox müşahidə edilsə də bununla belə, gündəmi və gələcəyi nəzərə alaraq əvvəlin nöqsanlarının tənqid edildiyi dönəmlər və dövrlər də olmuşdur. Başqa sözlə, "fikrin inkişafı həmişə əvvəlki tərəqqinin əldə etdiklərinin və böhran mühitində doğulan yeni ideyaların şübhə altına alınması üzərində qurulur".[9] Bu da intellektual inkişafın təbiiliyi kimi izah edilə bilər. Siyasətə, siyasi marağa və siyasi əxlaqa dair konsepsiya yaradıcıları sırasında Sokrat, Platon, Aristotel, Konfutsi, İmam Əli, Əl-Fərabi, N.Tusi, F.Hegel, Ş.Monteskye, C.Look, T.Cefferson, M.Ə.Rəsulzadə və başqa bir çox görkəmli şəxsiyyətləri nümunə göstərmək olar.

Tədqiqat işində Azərbaycan alimlərinin əsərlərinə xüsusi əhəmiyyət verilmişdir. Tədqiq olunan mövzunun politoloji nöqteyi-nəzərdən müəyyən aspektləri C.Əhmədlinin, R.Mehdiyevin, Y.Rüstəmovun, İ.Məmmədzadənin Ə.Abbasovun, Ə. Tağıyevin, Ə.Abdullayevin, R.Əzimovanın, R.Mustafayevin, A.Əsədovun, S.Xəlilovun, D. İsmayılovun, İ.İsmayılovun, M.Əfəndiyevin, H.Şirəliyevin, N.Ələkbərovanın, Ə.Qəşəmoğlunun, R.Musabəyovun və V. Hacıyevanın əsərlərində siyasətlə əxlaqın nisbəti

---

[8] Мамед-заде. И. Введение в этику. Баку: «Муаллим»,2004, с. 29.
[9] Mustafayev R. Fikir azaddır. Bakı: 2000, s. 20.

məsələsi öz əksini tapmışdır.[10] Lakin qeyd olunan əsərlərdə siyasi maraqla siyasi əxlaqın qarşılıqlı münasibətləri xüsusi bir tədqiqat obyekti olaraq araşdırılmamışdır.

Dissertasiya işində siyasi marağın həyata keçirilməsindəki səviyyələrin təhlilində siyasi sistem anlayışına aydınlıq gətirilir və bu istiqamətdə “Siyasi sistem” termininin müəllifi hesab edilən D.İstonun fikirləri əsas tutulur. Siyasi maraqların məzmunu baxımından siniflər, qruplar, cəmiyyət, dövlət, hakimiyyət və xalq müstəvisindəki münasibətlərin ən optimal variantı qarşılıqlı anlaşma və razılıq əsasında idarəetmə prinsipinin olması bildirilir və bununla bağlı T.Hobbs, J.J.Russo kimi alimlərin fikri əsas götürülür.

Siyasi marağın əsas subyekti olan şəxsiyyətin siyasi sosiallaşmasındakı mərhələlərin, şəxsiyyətin siyasi sistemə təsir edən tipologiyası və

---

[10] Əhmədli C. Cəmiyyət, siyasət, ideologiya. Bakı, Ulu. 1997. 192 s. Əhmədli C. Azadlıq və Tərəqqi. Bakı, Ulu. 1999. 28 s. Əhmədli C. Nəzəriyyə, onun tipləri və funksiyaları. Bakı, Diplomatya. 2008. 236 s. Abbasov Ə.F. İdarəetmənin sinergetik fəlsəfəsi. Bakı, M.B.M. Poliqrafiya mərkəzi. 2006. 212 səh. Abbasov Ə., Rüstəmova A.B., İsmayılov D.Y., Hacıyev H.M. İctimai inkişaf: Qnoseologiya və metodologiya problemləri. Bakı, “Adiloğlu” 2003. 158. s. Tağıyev Ə.M. İnsan və siyasət. Bakı. “MBM”, 2005. 178 s. Tağıyev Ə.M. Siyasətdən müntəxabat. Bakı, Təknur. 2011, 152 s. Tağıyev Ə.M. Azərbaycanda milli hərəkat ideyalarının yaranması və tarixi təkamülü. XIX əsrin sonu XXəsrin əvvəlləri. Bakı, APU. 1994. 86 s. Abdullayev Ə.Z. Dil, siyasət, sosial tərəqqi. Bakı, Azərnəşr,1985. 196 s. Аббасов А. Общество и государство. Баку, «MBM». 2007, 108 с. Məmmədzadə İ.R. Siyasi etika. Bakı, Ulu. 1997. 192 s. Мамэдзадэ.И. Введение в этику. Баку, Муаллим. 2004. -160 с. Мамэд-задэ.И. Опыт интерпретации морали. Баку, Муаллим. 2006. - 168 с. Азимова. Р.Д. Человековедение наука XXI века. Ваку. Текнур. 2011. 167 с. İsmayılov D. Azərbaycan tranformasiya prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial-demokratiya. Bakı, Adiloğlu. 2005. 344 s. Xəlilov S. Mənəviyyat fəlsəfəsi. Bakı. Azərbaycan Universiteti. 2007. 520 s. İsmayılov İ. Siyasət xalqın taleyidir. Bakı, Hüquq. 2007. 470 s. Mustafayev R. Fikir azaddır. Bakı. 2000. 294 s. Rüstəmov Y. Sosial-siyasi və hüquqi təlimlər tarixi. Bakı, Azərbaycan Universiteti. 2007, 424 s. Əsədov A. Siyasətin fəlsəfəsi: mahiyyətin gerçəkləşdirilməsinə yönələn iradə və onun tarixi taleyi spirtualist aristokratizm fəlsəfəsi kontekstində //İkinci, yenidən işlənmiş nəşr // Fəlsəfi pentologiya: 5-cild. Bakı, Təknur. 2010, 416 s. Əfəndiyev M. Siyasi elmin əsasları. Bakı, Siyasət. 2004. 604 s. Şirəliyev H., Əhmədov Ə. Politologiya. Bakı. 1997. 416 s. Ələkbərova N. Siyasi elmin tarixi və metodologiyası. (Dərslik. Ali məktəbin magistratura pilləsi üçün). Bakı, “Azərbaycan”. 2005. -240 s. Qəşəmoğlu Ə. Sosial idarəetmənin fəlsəfi sosioloji problemləri. “Ahəngyol elminə giriş”. Bakı, Səda. 2008. 264 s. Mehdiyev R.Ə. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. Bakı, XXI- Yeni Nəşrlər Evi. 2006. 624 s. Musabəyov R. Demokratiyanın bərqərar olması və möhkəmlənməsində seçkinin rolu”. Bakı, 1998. 215 s. Hacıyeva V. Siyasi orqanizm. Elementlər, əlaqələr, proseslər. Bakı, Elm. 2008. 336 s.

siyasi iştirakının əhəmiyyəti L.Qudman T.Xeyden, L.Milbert, M.L.Gel, S.Verba, L.Pay və s. Qərb alimlərinin nəzəriyyələri əsasında işlənmişdir.

Siyasi marağın əsas obyekti olması etibarilə dövlət xüsusi qanunauyğunluğa malikdir. Dövlətin mahiyyəti haqqında əsas iki fikir istiqamətinin formalaşması, siyasi maraqların strukturuna, formasına və realizasiyasına xüsusi təsir edir. Bu istiaqmətlərin birincisi Platon və Aristotelin nəzəriyyələri əsasında formalaşan klassik fikirlər, ikincisi isə intibah dövrü nümayəndələrindən hesab edilən J.J.Russonun, T.Hobbsun, C.Lookun dövləti ictimai müqavilələrin nəticəsi olaraq təsvir etməsidir. Birinci istiqamət dövləti kamil, xoşbəxt həyat adlandırırdısa, ikinci istiqamət birinciyə əsaslanmaqla siyasi maraqların həyata keçirilməsində davranışların və münasibətlərin tənzimlənməsi üçün əlverişli təsisat olaraq səciyyələndirirdi.

N.Tusi də dövləti siyasi maraq obyekti olması etibarı ilə siyasi maraqların tənzimlənmə məkanı olaraq qiymətləndirir və onun yalnız ədalət əsasında dayanıqlı olduğunu qeyd edirdi. Onun fikrinə görə ədalət yalnız dövlətdə sosial təbəqələr arasında uyğunluq yaradılması ilə mövcud ola bilər.[11]

ABŞ-ın görkəmli dövlət xadimi T.Cefferson öz yaradıcılığında siyasi əxlaq ideyasının bir çox praktiki prinsiplərini irəli sürmüşdür. Onun əsas tutduğu prinsiplər andiçmə mərasimində qarşıya qoyulmuşdur. Biz həmin prinsipləri ümumiləşdirərək dissertasiyamızda istifadə etdiyimiz ən mühüm iki prinsipi qeyd etmişik. Onlardan birincisi, siyasi partiyalar arasında əxlaqi münasibətlərin formalaşması və konkret mövcudluğu; ikincisi, xalqın rifahı naminə qarşılıqlı dialoq və əməkdaşlıq.

Qərb alimlərindən olan Butler Saffer T. Hobbbsun “Mənəvi və Siyasi fəlsəfə” əsərinin əsasında yazdığı “Siyasət və Mənəvi dəyərlər” adlı əsərində Amerikanın xarici siyasət strategiyası əsasında praktiki siyasətlə bağlı təhlilər aparsa da siyasətlə əxlaqın qarşılıqlı əlaqəsi məsələsinə toxunmamışdır.[12] Bu baxımdan bizim tədqiqat işimizdə siyasətlə əxlaqın qarşılıqlı münasibətlərinin təhlili əhatəli şəkildə öz əksini tapmışdır.

---

[11] X.Nəsrəddin Tusi. Əxlaqi-Nasiri. Bakı, Elm. 1999. s 47.

[12] Butler Şaffer Siyasət və Mənəvi Dəyərlər. 2004. www.lewrockwell.com/arch.html

**Tədqiqatın obyekti və predmeti:** Dissertasiyanın obyektini siyasi maraq və siyasi əxlaqın mahiyyəti və məzmunundan irəli gələn qarşılıqlı əlaqə problemlərinin nəzəri təhlili, predmetini isə, bu problemin tətbiqi siyasətdəki əhəmiyyətinin və rolunun əsaslandırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Siyasi maraqlarla siyasi əxlaqın qarşılıqlı əlaqəsində siyasət və əxlaqın nisbəti məsələsi ilə bağlı tarixən formalaşan konsepsiyalar haqqında elmi-məntiqi təhlil verməklə siyasətlə əxlaqın vəhdət prinsipini araşdırmaq olmuşdur.

Bu istiqamətdə dissertasiyada qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı konkret vəzifələri yerinə yetirilməyə çalışmışıq:

- şəxsiyyəti siyasi marağın əsas subyekti olaraq dərk etməklə siyasətdə insan faktorunun ən ali sərvət olmasını açıqlamaq;
- dövləti şəxsiyyətin maraqlarına təminatçı, tənzimləyici siyasi maraq obyekti, həm də qanunun qarantı olaraq qiymətləndirmək, siyasi maraqla siyasi əxlaqın qarşılıqlı əlaqələrində əxlaqla siyasətin nisbətini düzgün müəyyənləşdirməklə əxlaqı siyasətə tabe etmək yox, əxlaqı siyasətçi üzərində qiymətləndirici meyar olaraq dərk etmək;
- siyasi maraqların realizasiyasındakı zərurət kimi siyasi sistemin önə çəkilməsi, siyasi maraqların ədalətlə tənzimlənməsi üçün hakimiyyət sisteminə bölgülü hakimiyyət olaraq baxmaq və qanunverici, icraedici və mühafizəedici orqanların birinin digərinin səlahiyyətlərinə müdaxilə etməməsi prinsipini əsas götürmək;
- hüquqi dövlət və vətəndaş cəmiyyəti şəraitində qapalı tipli cəmiyyətdən açıq tipli cəmiyyətə keçidin, siyasi əxlaq prinsipilə şəxsiyyətin və cəmiyyətin siyasi sosiallaşmasının əhəmiyyətini açıqlamaq;
- dövlətin inkişafı üçün ictimai, sosial-siyasi sabitliyin mövcudluğunu, bunun əsas şərti kimi isə hər bir vətəndaşın azadlığını, cəmiyyət və hakimiyyətin bir-birini tamamladığı dövlətin müstəqilliyinin və müqəddəsliyinin qorunmasını əsl siyasi əxlaq olaraq səciyyələndirmək;
- daxili siyasətin güzgüsü olan sosial siyasəti siyasi əxlaqın əsas şərti kimi qarşıya qoymaq;
- siyasi əxlaqın zəruriliyini və siyasətlə əxlaqın qarşılıqlı əlaqəsini təhlil edən konsepsiyalardan çıxış edərək əsasən makiavellizm, siyasi manipulyasiya, bürokratiya-avtoritarizm-totalitarizm, zorakılıq və imperializmi siyasi əxlaqa qarşı olan antipodlar kimi təqdim etmək;
- Azərbaycan Xalq Cumhuriyyətini Şərqdə ilk milli dövlət quruculuğunun nümunəsi olaraq nəzərdən keçirmək, Cumhuriyyət qurucularının İslamlaşmaq, Türkləşmək və Bəşəriləşmək ideyasından irəli gələn siyasi

əxlaqı Azərbaycan Respublikası siyasi elitası üçün daima nümunə olaraq dərk edməyin və rəhbər tutmağın vacibliyini qarşıya qoymaq;

-Azərbaycan Xalq Cühuriyyətinin varisi olan müasir Azərbaycan Respublikası quruculuğundakı siyasi əxlaqa əsas üç aspekdən yanaşmaq: I. Azərbaycançılıq ideologiyas II. Azərbaycan Respublikası Konstitusiyası: III.“Əsrin Müqaviləsi”: kimi vacib məqamları təhlil etmək;

**Tədqiqatın nəzəri-metodoloji əsası.** Dissertasiyada müasir tədqiqatlarda geniş istifadə edilən, elmi idrakda aparıcı rola malik olan və obyekt elementlərin çoxluğu kimi qiymətləndirilən sistemli yanaşma metoduna geniş müraciət edilmişdir. Bununla yanaşı, tarixilik və məntiqilik, analiz və sintez, ümumiləşdirmə, müqayisəli təhlil prinsipləri də əsas götürülmüşdür. Mövzunun tədqiqində çoxsaylı materiallardan istifadə olunmaqla xronoloji ardıcıllıq da diqqətdə saxlanılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Siyasi maraq və siyasi əxlaq probleminin qoyuluşundan və ona yanaşma tərzindən irəli gələn aşağıdakı nəzəri müddəa və tövsiyyələrin elmi yenilik qismində təqdim edilməsinə cəhd edilmişdir:

- siyasi maraqla siyasi əxlaqın qarşılıqlı əlaqəsi kompleks şəkildə tədqiqat obyekti kimi araşdırılır;
- siyasi marağa əsas subyekt kimi şəxsiyyət, əsas obyekt kimi isə dövlət təqdim olunur;
- siyasi əxlaqın perspektivi və siyasi marağın siyasi əxlaqla tənzimlənməsi baxımından ən optimal şərait olaraq hüquqi dövlət və vətəndaş cəmiyyəti prinsipinin öyrənilməsinə cəhd edilir;
- siyasətdə, xüsusən praktiki olaraq siyasətlə əxlaqın nisbəti məsələsində makiavellizmin “məqsəd vasitəyə haqq qazandırır” ideyası müqabilində “hər vasitə məqsədin bir hissəsidir” ideyası ilə siyasi əxlaqın zəruriliyi irəli sürülür;
- bürokratiya, siyasi monipulyasiya, avtoritarizm, totalitarizm, zorakılıq və imperializm siyasi əxlaqa qarşı antipod olaraq elmi-praktiki təhlil edilir, qeyri-əxlaqi siyasət faktları kimi nəzərdən keçirlir. Bunların aradan qaldırılmasında siyasi inam və dövlət maraqlarının qorunması, siyasi borc və siyasi məsuliyyət, siyasi azadlıq və siyasi müstəqqillik, siyasi bərabərlik və siyasi ədalət anlayışları siyasi əxlaqın funksional prinsipi olaraq qarşıya qoyulur;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın məzmunundan, əldə edilmiş nəzəri ümumiləşdirmə və nəticələrdən siyasi elmin nəzəriyyəsinin və tarixinin öyrənilməsində, bütövlükdə siyasi elmə

dair tədqiqat işlərində bu aspektdə tədqiqat aparan mütəxəssislər üçün metodoloji əsas kimi götürülə bilər. Eyni zamanda ali təhsil ocaqlarının müvafiq fakultələrində xüsusi kurslar və seminarların keçirilməsində habelə, dövlət idarəetmə orqanlarının fəaliyyətində gərəkli bir vəsait kimi istifadə edilə bilər.

**Tədqiqatın approbasiyası.** Dissertasiya işi AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun "Politologiya və siyasi sosiologiya" şöbəsində müzakirə olunmuş və müdafiəyə tövsiyyə edilmişdir.

Tədqiqatın əsas ideyası və nəticələri beynəlxalq və respublika elmi-praktiki konfranslarda məruzə edilmiş, toplularda nəşr olunmuşdur. Araşdırılan mövzuya dair müəllifin irəli sürdüyü müddəalar, təklif və tövsiyyələr bir neçə seminarın müzakirə predmetini təşkil etmişdir. Eyni zamanda mövzu ilə bağlı Azərbaycanda və xaricdə müxtəlif elmi məcmuələrdə 15-dən artıq elmi məqalə dərc edilmişdir.

**Dissertasiyanın strukturu:** Dissertasiya işi giriş, iki fəsil, yeddi yarımfəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"** hissəsində mövzunun aktuallığı və əhəmiyyəti əsaslandırılmış, problemin işlənmə dərəcəsi müəyyənləşdirilmiş, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti göstərilmiş, aprobasiyası və quruluşu haqqında məlumat verilmişdir.

**"Siyasi maraqlar siyasi elmin aktual problemi kimi"** adlanan birinci fəsil üç yarımfəsildən ibarətdir. **"1.1.Siyasət və siyasi maraq anlayışı: nəzəri-politoloji təhlil"** adlı birinci yarımfəsildə siyasi elm tarixində formalaşan konsepsiyalar əlaqəli və müqayisəli şəkildə təhlil edilmişdir. Bu sırada Sokratın ideyalarını davam və inkişaf etdirən Plotonun əvvəlinci olaraq siyasi maraqlar haqqındakı nəzəriyyələrilə dövlət quruluşu, dövlət idarəetmə qaydaları və dövlətin tipoloji növləri haqqında orijinal ideyalar irəli sürməsi açıqlanmışdır. Bununla belə hesab edirik ki, siyasi maraq elə bir anlayışdır ki, Bu yalnız siyasətin elmi əsaslarla izah edilməsi və siyasi marağa aid fikirlərin müxtəlif səviyyələrdə uzlaşdırılması ardıcıllıq və vahidlik prinsipi yalnız dövlət anlayışı əsasında aydınlaşa bilər. Çünki siyasətin və siyasi marağın mahiyyəti açıqlanarkən, siyasi hadisələrin mərkəzində dövlətin durduğunu görürük.

“İdeal dövlətdə əmək bölgüsü tələbata və təbii qabiliyyətlərə uyğun olur”[13] - deyən Platon siyasi marağa xüsusi görkəm verən dövlət quruluşlarının tipoloji təsnifatını hazırlamış, nəticə etibarı ilə iki hissəyə ayrılan altı dövlət tipi göstərmişdir. Bu dövlət tipləri qanuni və qeyri-qanuni formalara ayrılır. 1. Qanun əsasında qurulan təkin hakimiyyəti- monarxiya; 2. Təkin qeyri-qanuni hakimiyyəti-tiraniya. 3. Azlığın qanuni hakimiyyəti-aristokratiya. 4. Azlığın qeyri-qanuni hakimiyyəti-oliqarxiya. 5. Çoxluğun qanuni hakimiyyəti-demokratiya. 6. Çoxluğun qeyri-qanuni hakimiyyəti anarxiya kimi qeyd edilmişdir.

Aristotel öz müəllimi Platonun ideya və nəzəriyyələri əsasında siyasi elmin spesifik və orijinal xüsusiyyətlərini bir tam kimi sistemləşdirmişdir. Onun yaradıcılığındakı siyasi maraq və siyasi əxlaqın qarşılıqlı münasibətini təmin edən vasitələr sistemini aşağıdakı kimi təsnifatlaşdırmaq olar: siyasətin elmiliyi; təbii təlabatlar və ünsiyyət; ailə,cəmiyyət və dövlət; qanun, bərabərlik və ədalət; vətəndaşlıq, vətəndaş əxlaqı və xüsusi mülkiyyət; dövlət və onun quruluş formaları; “ən yaxşı kimi “politiya”; insanın cəmiyyətə və dövlət sisteminə ən yaxşı nümunə olması; təbəqələr və orta təbəqənin qanuna dayaqlığı; demokratiyaya yaxınlıq; qanunun aliliyi (müasir anlamda vətəndaş cəmiyyətinin ideoloji əsasları).

Siyasi marağa insan kontekstindən yanaşaraq insanı “siyasi varlıq” hesab edən Aristotelin siyasi konsepsiyası və konkret dövlətlə bağlı nəzəriyyəsi bir başa ailə üzərində qurulur və bunun da əsasını ünsiyyət təşkil edir. “Bir-birinə bənzər insanlar mümkün qədər yaxşı yaşamaq üçün ünsiyyətə girirlər. Ünsiyyətin birinci növü ailədir. Ailə öz gündəlik tələbatını ödəmək üçün təbii yolla meydana gələn ünsiyyətdir. Bir neçə ailədən ibarət olan və yalnız qısa müddətli tələbatı ödəmək məqsədi güdən ünsiyyət - cəmiyyətdir. Bir neçə belə axıra çatdırılmış ünsiyyət dövlətdir. Hər bir dövlət ilkin ünsiyyətlər kimi təbii yaranışın nəticəsidir”.[14]

Alman politoloqları Karl Şmitin siyasi konsepsiyasına görə, siyasi maraq "siyasət aləmini dərk" etməyə istiqamətlənən müstəqil və orijinal məqsəddir. Bir çox alimlər isə siyasi marağı sosial qrupların mənafeyi ilə əlaqələndirir, siyasi hakimiyyətin ələ alınması, saxlanması və istifadə olunmasına yönlənmiş fəaliyyətlərin nəticəsi hesab edirlər. Belə

---

[13] Платон. Государство: Законы. Политик. Н.Москва: «Мысль», 1999, с 110.
[14] Аристотель. Сочинения в 4-х т.т1, М. :1983.376 с.

nümayəndələrdən A.Bentlinin, D.Turmenin, M.Veberin adlarını qeyd etmək olar.

Müasir politologiyanın görkəmli nümayəndələri N.Lassuel və A.Kaplanın nəzərində siyasi maraq hakimiyyətin formalaşdırılması, bölüşdürülməsi və bunun vasitəsilə ümumi maraqların realizasiyasıdır.

Siyasi maraqların inkişafını istiqamətləndirən siyasi sistem müasir siyasi elmi metodologiyaya təsir göstərəcək bir yeniliklə ilk dəfə D.İston «siyasi sistem» anlayışını irəli sürmüş, obyektiv siyasəti qanunauyğun bir sistem kimi başa düşmüş, onu elm olaraq təhlil etmişdir. Siyasətə və siyasi marağa sistemli yanaşan alimlərdən biri də M.Veberdir. O, yazır: "Empirik elm heç kimə nə etməli olduğunu öyrədə bilməz, o insana ancaq məlum şərtlər çərçivəsində həyata keçirmək istədiyi yöndə nə edə biləcəyini göstərir".[15]

Siyasi maraqların təmsilolunma şəraiti müxtəlif səviyyələrdə həyata keçirilir. Məsələn, ictimai təşkilat, partiya, dövlət və s. Dövlət quruluşu tiplərinin siyasi maraqların həyata keçirilməsinə özünəməxsus təsiri vardır. Belə ki, totalitar tipli dövlət quruluşunda, demokratik prinsipli maraqların həyata keçirilməsi mümkün deyil. Bundan belə qənaətə gəlmək olar ki, siyasi maraq sistemdə təmsilolunma məqsədi və ondan irəli gələn hakimiyyətə cəhd prinsipidir.

**"1.2.Siyasi marağın əsas subyekti və obyekyi: şəxsiyyət və dövlət"** adlı ikinci yarımfəsildə şəxsiyyət daha çox siyasi fenomen olduğuna görə onun funksional xarakterinə nəzər saldıqda belə qənaət hasil olur ki, ən dəqiq məna Qədim Yunan dilində "liçina" sözünə adekvatlaşır və "maska" anlayışına gəlib çıxdığı qeyd edilir. Şəxsiyyəti bu xüsusda Aristotel natiq varlıq kimi qeyd edirdisə, dahi Hegel onu "mənəvi fəaliyyətin subyekti" adlandırırdı".[16]

Siyasi maraq daşıyıcısı olan şəxsiyyətin başlıca xüsusiyyətlərdən biri özünüdərk və özünütəşkilatlandırmadır. Çünki iradəli, azad və ədalətli olması etibarilə ondakı müstəqqillik keyfiyyətinin yüksəldilməsini təmin edən zəruri cəhət "özünü təşkilatlandırma, deməli özünü idarə qabiliyyəti nə qədər artırsa, sərbəstlik dərəcəsi də bir o qədər yüksəlir. Ümumiyyətlə, sərbəstliyin və müstəqliyyin yolu özünütəşkilatlandırmadan və

---

[15] Вебер М. Избранные произведения: Пер с.нем.,под общ.ред.и послесл. Ю.Н.Давыдова; Предисл. Гайденко П.П. М.: Прогресс, 1990, с 350.
[16] Hegel F. Hüquq fəlsəfəsi. Bakı: "Nərgiz", 2007, s 146.

özünüidarədən keçir".[17] Bununla yanaşı sosial-siyasi əhəmiyyətli fəaliyyət, pozitiv siyasi davranış, məsuliyyət və yüksək intellektual intuisiya olmalıdır. Bunlar yüksək mənəviyyat hadisəsi olduğu üçün burada mənəvi dəyərlər sistemindən söhbət getməlidir. Bu konteksdən çıxış etdikdə qeyd edilməmidir ki, şəxsiyyətin mənəviyyatını təşkil edən və biri digərini tamamlayan əsas məziyyətlər ağıl, idrak, vicdan, zəka, cəsarət, hafizə, tədbirlilik, müvazinət, əliaçıqlıq, nəciblik, genişlik, hiddət, heysiyyat, təvazö, səmimiyyət, doğruluq, fəhmlilik, hazırcavablıq, təmkin, hikmət, şücaət, iffət, qoçaqlıq, alicənablıq, mətanət, helm, vüqar, dözüm, sədaqət və onların hamısını mənalandıran və hərəkətə gətirən azadlıq və ədalətdən ibarətdir. Azadlıq və ədalət şəxsiyyətin elə məziyyətidir ki, o olmadan, ümumiyyətlə, hansısa bir zövqdən, seçimdən və yararlı hərəkətdən danışmaq olmaz. Bunların ahəngdarlığı əlbətdə ki, siyasi ədalət prinsipini təmin edir. Siyasi ədalət də ilk öncə şəxsiyyətin siyasi sistemdə siyasi sosiallaşmasına və özünə layiq yer tutmasına zəmin və şərait yaradır.

Şəxsiyyətin sosiallaşması onun ictimai-siyasi inkişafının ən vacib tərəfidir. Onun sosiallaşmasında ən ali məram siyasi sosiallaşmadır. Çünki "şəxsiyyət siyasi sosiallaşma zamanı həm prosesə uyğunlaşır, həm də öz sahib olduğu dəyərlərə, norma və maraqlara müvafiq olaraq bu prosesi dəyişdirməyə, onu istiqamətləndirməyə çalışır".[18] Şəxsiyyətin siyasi mövqeyi və fəaliyyəti bütövlükdə siyasi sistemin və ya onun ayrı-ayrı yarımsistemlərinin ifadəsi kimi cəmiyyətin, dövlətin inkişafı ilə yanaşı hər bir vətəndaşın inkişafına, xüsusilə, onun siyasi şüuruna pozitiv təsir göstərməlidir. Başqa sözlə, şəxsiyyətin siyasi sosiallaşmasının və siyasi sferada iştirak etməsində əsas məqsəd xalqın, dövlətin qraşısında yüksək vicdani məsuliyyətə və insani ucalığa xidmət olmalıdır.

Siyasi marağın əsas obyekti dövlətdir. Dövlətin tipoloji xarakteri siyasətin istiqamətini müəyyənləşdirən əsas səbəbdir. Dövlət cəmiyyətin demoqrafik, iqtisadi, sosial-ictimai, mədəni-mənəvi strukturunun qorunmasında, onun intellektual idarə edilməsindəki siyasi sistemin əsas təsisatı, siyasi marağın fundamental strukturu və bütün siyasi maraqların həyata keçirilməsinə şərait yaradan, müəyyənləşmiş obyektiv sferadır. Keyfiyyət və xassəsinə görə, yalnız dövlət insanların hər cür neqativ vəziyyətdən qorunduqları bir quruluşdur.

---

[17] Abbasov Ə. F. İdarəetmənin sinergetik fəlsəfəsi. Bakı: M.B.M. Poliqrafiya mərkəzi, 2006, s 53.
[18] İbrahimli X. Politologiya. Bakı: Qanun, 2008, s 157-158.

Mənbələrə əsasən dövlət haqqındakı fikirlər zahirən müxtəlif görünsə də onların məzmununa obyektiv baxış nəticəsi ilə demək olar ki, dövlət üç mühüm, əhali, ərazi və hakimiyyət faktoru ilə təşkil olunmaqla heç birinin digərlərinin səlahiyyətlərinə müdaxilə etmə statusu olmayan üç zəruri alt sistemlərlə, yəni, qanunverici, icraedici və mühafizəedici orqanlarla müəyyənləşir. N.Sedixin fikrinə görə "beynəlxalq hüquq və siyasi aspekt nöqteyinəzərdən dövlətin xarakteristikası üçün, onu təşkil edən üç başlıca ünsür ərazi, əhali və hakimiyyət böyük əhəmiyyətə malikdir".[19]

**"1.3.Siyasi maraq və siyasi əxlaqın qarşılıqlı əlaqəsi hüquqi dövlət və vətəndaş cəmiyyəti kontekstində"** adlandırılan bu yarimfəsildə **f**ərqli mülahizələrdən belə qənaətə gəlmək olar ki, müasir müstəvidə dövlət siyasi maraq daşıyıcısı olan subyektin ümumi hüquqlarını, xüsusən də sosial-siyasi və hüquqi dəyərlərini təmin edən və qoruyan təsisatdır. Çünki "həqiqi dövlət insanların təbii təyinatını gerçəkləşdirməli olan və gerçəkləşdirən dövlətdir. Həqiqi dövlət Dünya nizamının sosial olaraq gerçəkləşməsidir".[20]

Qanun aliliyi ideyası və dövlət strukturlarının buna mütləq mənada tabe olaraq riayət etməsi hüquqi dövlət anlayışının əsas sütunudur.

Mövcud tarixi təcrübə sübut edir ki, hüquqi dövlət mənəviyyata əsaslanan anlayışdır. "Mən elə bir insan tanımıram ki, o hüquqi dövlət tərəfdarı ola və Allahsız ola... Bir sözlə, hüquqi dövlət dərin inanclı insanların Allaha sevgisinin yaradılışıdır. Bu, mənim baxışımla "sosial cəbr"in insan tarixində ən yüksək nailiyyəti, ictimai mənəviyyatın və qayda-qanunun hüquqi gerçəkliyi və qorunmasıdır. Hüquqi dövlət dünyəvi mədəniyyətin və qarşılıqlı anlaşmanın şəraitidir".[21] Bu prinsiplə hüquqi dövlət cəmiyyətin bütün səviyyələrinə, onların fəaliyyətlərinə şərait yaradan, onun daimiliyini qoruyub reallaşdıran əsas dayaqdır. Belə olduğu halda cəmiyyətin yeniləşdirilməsi, təşkil edilməsi, cəmiyyətdə nizam-intizamın bərqərar edilməsi əsasən iki hissədən ibarət olur.

I. Hakimiyyət orqanlarının demokratik statusu, onların ədalətli seçkilər vasitəsilə seçilməsi və xalqa tabe olması;

II. Şəxsiyyət azadlığı;

Burada vətəndaşın Konstitusiyada təsdiq olunmuş vicdan, söz, müxtəlif düşüncə, toplaşma, təşkilat və partiya yaratma kimi azadlıqları öz əksini

---

[19] Şirəliyev H. Əhmədov Ə. Politologiya. Bakı. 1997. s 119.
[20] Политология. Под редак. Г.В.Полуниной. М.: 2000. с.166.
[21] Аббасов А.Ф. Общество и государство. Баку: «MBM», 2007, с 5.

tapır. Bu göstərilənlər Azərbaycan Respublikasının Konstitusiyasında da təsbit edilmişdir. Məsələn, I maddənin I bəndində qeyd edilir: "Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan Xalqıdır".[22] Yaxud, Maddə 47. Fikir və söz azadlığı, Maddə 48. Vicdan azadlığı, Maddə 49. Sərbəst toplaşma azadlığı, və s. bu kimi müddəalar qeyd edilmişdir. Ümumiyyətlə, hüquqi dövlətdə şəxsiyyətin və dövlət hakimiyyəti sistemlərinin fəaliyyətinə qanunla icazə verilir və ya qanunla qadağa qoyulur. Corc Vaşinqton qeyd edirdi ki, "səlahiyyətlərin lazımı qaydada bölündüyü və tənzimləndiyi dövlətdə azadlıq etibarlı şəkildə qorunur. Dövlət, fraksiyaçıların onu parçalamaq cəhdlərinə qarşı duruş gətirmək iqtidarında olmalıdır, o hər bir vətəndaşa göstərməlidir ki, qanunların sərhədləri haradan keçir və o hamı üçün şəxsi hüquqların və mülkiyyətin tam və sabit riayət olunmasını təmin etməlidir".[23]

Dissertasiyanın ikinci fəsli **"Siyasi əxlaq, onun strukturu və səviyyələri"** adlanır. Bu fəslin **"2.1. Siyasi əxlaqın mahiyyəti və əhəmiyyəti"** birinci yarımfəslində siyasi maraqlarla siyasi əxlaqın qarşılıqlı əlaqəsi, onların nisbəti probleminin aydın həlli üçün əxlaqın əsas qaynaqları təhlil edilmişdir. Bu istiqamətdə elmi metodoloji olaraq iki əsas qaynaq göstərilə bilər:

I. Əxlaqın qaynağı ilahiyyatdır. Bu qaynağı əsas götürən əlbəttə ki, filosoflardır. Bu xəttdə əxlaq mütləqdir, dəyişməzdir və onun heç bir norma və qaydası sıradan çıxarılmazdır. Bu anlamla qəbul edilən əxlaq abstraq olmaqla qlobaldır, ümubbəşəridir və ilahi qaynaqla şərtlənən norma və qaydalardır. Məsələn, dünyada hər kəs ədalətin yaxşı, zülmün pis olduğu haqda eyni düşüncədə ola bilər. Bu yanaşmada əlbəttdə rasional prinsip inkar edilmir, lakin problemin mahiyyətini inanc təşkil edir.

II. Əxlaqın qaynağı cəmiyyətdir. Bu istiqamətdə əsasən antropoloq və sosioloqlar çalışmışdır. Onların nəzərinə görə əxlaq cəmiyyətin tələbatından, maraqlarından və ümumi həyat tərzindən irəli gələn bir çox hərəkətləri nizamlayan normalardır.

Hesab edirik ki, bu baxışla əxlaq nisbidir, lokal və regionaldır və ümumbəşəri deyil. Məsələn, Afrika qitəsinin bir ölkəsində qəbul edilən ictimai həyat tərzi başqa bir ölkəsində eyni qarşılanmır. Yaxud, Avropa cəmiy-

[22] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2009. s 5.
[23] Melvil İ.Urofsky. ABŞ Demokratiyası Haqqında Əsas Mətnlər. İqtisadi və Siyasi Araşdırmalar Mərkəzi (FAR CENTRE). 2005. s 344.

yətlərindəki norma və həyat tərzi olan əxlaq Şərqdə qəbul edilmir, hətta İslam Şərqində müqavimətlə qarşılanır. Bu baxımdan bizim qənaətimizə görə əxlaqın qaynağınının ilahiyyat olmasını əsas götürən istiqamət daha dəqiq və təqdirəlayiqdir. Başqa sözlə ilahi əxlaq ümumini və tamı ifadə edisə, ictimai əxlaq xüsusinivə fərdi ifadə edir ki, bunun da kifayət qədər fəsadları mövcuddur.

Siyasi ideyalar tarixində siyasətlə əxlaqın qarşılıqlı əlaqəsinə dair müxtəlif və mübahisəli üç əsas yanaşma mövcuddur:

I. Öz ideya bünövrəsini Sokratdan, Konfutsidən və İslam Şərqinin əvəzedilməz dahisi (659-664-cü illərdə dövlət başçısı olan) İmam Əlidən (601-664) götürən və M. Qandinin (1869-1948) simasında müasir təcrübədə bəşəriyyətə çatdırılan əxlaqi dəyər və normaları, ümumilikdə əxlaqı siyasətə meyar, əxlaqı siyasət üzərində qiymətləndirici dəyər etməklə ədalət və qeyri-zorakılığı rəhbər tutan prinsiplər.

II. Birincinin tam əksinə olaraq əxlaqın siyasətə tabe edilməsi və ya siyasətin əxlaqdan tamamilə ayrılması; bu siyasi elmdə əsasən "məqsəd vasitəyə haqq qazandırır" deyən, lakin, *hər vasitə məqsədin bir hissəsidir* faktına əhəmiyyət vermyən N. Makiavellinin adı ilə bağlı olmaqla, qarşıya siyasi maraqlara uyğun məqsəd qoymaq və həmin məqsədə doğru istənilən vasitələrdən istifadə etməklə istiqamət götürmək və hətta heç bir əxlaqi normalara məhəl qoymadan, "nəyin bahasına olursa-olsun məqsədə çatmaq" iddiasında olan zorakılıq prinsipləri. (Hazırda bu prinsip qloballaşmaya hakim olan Qərb dünyasının normal qəbul edilmiş həyat tərzi olmaqla, inteqrasiya etməkdə olan bütün dövlətlərə sirayət etməkdədir).

III. Siyasətlə əxlaqın kombinasion ümumiliyini və qarşılıqlı təsirlərini davam etdirməklə, qarşıya qoyulan məqsədlərə nail olmaqda əxlaqi dəyərlər nəzərə alınmaqla, müəyyən vəziyyətlərdə müxtəlif vasitələrdən istifadə edilsə belə, onların mütənasibliyinin qorunması prinsipi. Buradan belə qənaətə gəlmək olar ki, yuxarıda göstərilənlər arasında birinci, bütöv bəşəri dəyərlər, insani haqlar sülh, sabitlik və əmin-amanlıq anlayışlarının inkişafı üçün ən yararlı sistemdir. Digər ikisi isə reallıqda özünün fəlakətli fəsadları ilə Şərq-Qərb qarşıdurması yaratmaqla hazırki dünyanı çıxılmazlığa salmış və ciddi məqamlara gətirmişdir!

Siyasi əxlaq fenomeninin təhlili istiqamətində öncə onu təşkil edən mühüm cəhətlər təhlil edilməlidir. Siyasi əxlaqı təşkil edən əsas amillər siyasi dəyər, siyasi mədəniyyət, qeyri-zorakılıq və humanizm ideyalarıdır.

Siyasi dəyər, hər şeydən əvvəl, hər bir şəxsiyyətin siyasi subyekt olmasıyla yanaşı, həm də əxlaqi subyekt olması probleminə əsaslanır. Ona

görə də siyasi dəyər siyasətçinin mənəviyyata, təfəkkürə əxlaqi məsuliyyətə və azadlığa malik olan subyektin səmərəli fəaliyyəti nöqteyi-nəzərdən qiymətləndirilir.

Siyasi mədəniyyət fenomeni XX əsrin yarısından sonra araşdırılmış və aktuallaşmışdır. Siyasi mədəniyyət siyasi həyatda identifikasiya, istimulyasiya, adaptasiya, inteqrasiya kommunikasiya, sosiallaşma və s. kimi funksiyalara malikdir. "Siyasət və hüquq isə mədəniyyəti və əxlaqı möhkəmləndirmək üçündür, artıq sözün yaxşı mənasında süni vasitələrlə. Siyasət və hüquq mədəniyyət və əxlaq üzərində qurulduqda siyasi mədəniyyət və qanun formasını kəsb etmiş olurlar. Siyasətin və hüququn mədəniyyətdən və əxlaqdan qopub ayrılması isə siyasi deqradasiyadır".[24]

Qeyri-zorakılıq və hümanizmin, konkret insan aliliyinin praktiki siyasətə gətirilməsi bəşəriyyətin həyatını sual altına alan hadisələr faktının təhlükələrini müəyyən qədər aradan qaldırmış olar və bundan sonra ümumbəşəri sülhün formalaşmasına təkan verə biləcək qlobal münasibətlər sistemini yaradar.

**"2.2. Sosial siyasət siyasi əxlaqın əsas şərti kimi"** adlandırılan ikinci yarımfəsildə göstərilir ki, siyasi əxlaqı şərtləndirən sosial siyasətin bazası konkret insan üzərində qurulur.

Sosial siyasətin mahiyyətini təşkil edən əsas anlayış ailə, ailələr anlayışıdır. Ailə institutunun elmi-mədəni, iqtisadi-tibbi, sosial-psixoloji, dini-mənəvi problemləri sosial siyasətin ən zəruri problemləridir. Rövşən Mustafayevin fikrinə görə "ev-ailə-bizim-qibləgahımız da qalamız da budur, Azərbaycan dövlət sturukturu ideyasının özü məhz bu toxunulmaz dayaqlar üzərində qurulub, qərar tutub, ucalıb və ucalacaqdır da".[25]

Bu konteksdən yanaşaraq demək olar ki, sosial siyasətin siyasi əxlaqı şərtləndirən əsas prinsipləri və funksiyalarını aşağıdakı kimi təsnifatlaşdırmaq olar: 1. Xalqın mütəmadi demoqrafik istehsalına şərait yaratmaq və vətəndaşların zəruri ehtiyaclarından irəli gələn maddi təminatlarını qarşılamaq. 2. Siyasi rejimin sosial ədalət haqqında rəsmi münasibətlərinin və mövqeyinin müəyyənləşməsindən sonra ona uyğun olaraq sosial ədaləti həyata keçirmək. 3. İctimai mühitin bütün səviyyələrində nizam-intizamı, ictimai sülhü, ictimai sabitliyi bərqərar etmək.

---

[24] Əsədov A. Siyasətin fəlsəfəsi: mahiyyətin gerçəkləşdirilməsinə yönələn iradə və onun tarixi taleyi spirtualist aristokratizm fəlsəfəsi kontekstində //İkinci, yenidən işlənmiş nəşr Fəlsəfi pentologiya: 5-cild. Bakı:"Təknur", 2010. s 67.

[25] Mustafayev R. Fikir azaddır. Bakı: 2000, s 3.

Sosial siyasətin qarşısında duran əsasən elm-təhsil və tərbiyə, səhiyyə, sabitlik və münaqişələr, ətraf mühit və ekologiya, ərzaq və maddi təminat problemləridir. Çünki sosial siyasət vətəndaşın həm fərdi, həm də ictimai-siyasi həyat müqəddəratını və bütün maraqlarını həll edən, həyata keçirən prinsipdir, həm də elə bir prinsip ki, sözün həqiqi mənasında məqsədi tərəqqi. "Ən doğru tərəqqi obyektiv meyyara görə baş verən tərəqqidir... Tərəqqi hər hansı bir varlığın öz missiyasına görə fəaliyyət göstərdiyi zaman yaranan ahəngdir".[26] Obyektiv meyar yalnız və yalnız insan aliliyidir.

**"2.3. Siyasi əxlaqa qarşı antipodlar və onların aradan qaldırılmasında funksional prinsiplər"** adlanır. Burda siyasi əxlaqa qarış olan antipodlar əsasən makiavellizm, siyasi manipulyasiya, despotik rejim və hakimiyyətdən sui-istfadə, bürokratiya-avtoritarizm-totalitarizm, zorakılıq və imperializm kimi göstərilmişdir. Antipodların aradan qaldırılması istiqamətində siyasi inam və dövlət maraqlarının qorunması, siyasi borc və məsuliyyət, siyasi azadlıq və müstəqillik, siyasi bərabərlik və siyasi ədalət kimi funksional prinsiplər elmi-siyasi təhlil edilmişdir. Burada siyasi bərabərlik və siyasi ədalət prinsipi xüsusi əhəmiyyətə malik fenomen olaraq irəli sürülmüş, dözümlülük anlaşışı isə siyasi ədalətin tərkib hissəsi olaraq təhlil edilmişdir. Siyasətin tarixən formalaşan koseptual strukturu da məhz bu problemlərin obyektiv tənzimlənməsinə, insan həyatını əhatə edən hər bir ictimai-siyasi hadisələri ədalətlə nəzarətdə saxlanmasına xidmət etməlidir. Ədalətli nəzarət isə yalnız "özünü, özünlə başqaları arasında tərəzi et" [27] arqumentini rəhbər tutmaqla mümkündür.

**"2.4. Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan Respublikası quruculuğunda siyasi əxlaq"** adlı axrıncı yarımfəsildə qeyd edilir ki, Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti quruculuğundakı siyasi əxlaq M.Ə.Rəsulzadənin simasında Azərbaycan, Turan, bütövlükdə Şərq tarixinə milli dövlətin şanlı nümunəsi olaraq nəqş olundu. Azərbaycan Xalq Cümhuriyyətinin quruculuğunda ilkin müşahidə edilən siyasi əxlaq məhz milli bütövlüyə doğru irəliləmə prinsipidir.

Cümhuriyyət qısamüddətli fəaliyyətində gələcəyə nümunə olacaq bir siyasi irs qoymuşdur. Rəsulzadənin fikrinə görə "Azərbaycan Avropaca

---

[26] Qəşəmoğlu Ə. Sosial idarəetmənin fəlsəfi sosioloji problemləri. "Ahəngyol elminə giriş". Bakı: Səda, 2008, s189-193.
[27] İmam Əli. Nəhcül Bəlağə. Bakı: Nurlar, 2007, s 572.

tanınan, yeganə bir İslam mövcudiyyəti idi. Bu yeni türk hökuməti, eyni zamanda bütün aləmi-İslamda ilk dəfə təşəkkül etmiş bir cümhuriyyət idi”.[28]

Xüsusi qeyd edilməlidir ki, Azərbaycan Xalq Cümhuriyyəti quruculuğundakı siyasi əxlaq xalqın və dövrü elitanın milli mənəviyyatından, milli təfəkküründən və milli özünüdərkindən doğulan siyasi əxlaqdır.

Cümhuriyyət quruculuğundakı siyasi əxlaq həm də ona görə əlamətdar və səciyyəvidir ki, müasir Azərbaycan Respublikasının inkişafı istiqamətində elmi, siyasi elitanın fəaliyyəti üçün onda zəngin dövlətçilik irsi mövcuddur. Burada milli-hüquqi dövlətqurma prinsiplərinin bütün parametrləri azadlıq, müstəqillik, hüquqilik, demokratiya, siyasi plüralizm, parlamentarizm, xüsusilə, Vətən qarşısında vicdan və ədalətlə xidmət kimi müqəddəs amallara dayaqlanan siyasi əxlaq nümunəsi bu günümüz üçün olduqca əhəmiyyətlidir.

Müasir Azərbaycan Respublikası 1991-ci ildən etibarən Azərbaycan Xalq Cümhuriyyətinin bərpası, varisi, atribularının qoruyucusu və yaşadıcısı olaraq inkişaf yolundadır. Bu istiqamətdə ilkin qeyd edilməli bir məqam vardır. Azərbaycanın milli dövlət ideyası, müstəqilliyi və suverenliyi məqsədilə şəraiti düzgün qiymətləndirərək 1990- cı ilin noyabrında Heydər Əliyev Naxcıvan Ali Məclisində Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağını qaldırdı. Bu hadisə Azərbaycan Respublikası quruculuğunda varislik missiyasına sədaqət olmaqla ilk atılan siyasi əxlaq addımı idi. Əlbəttə bu keçid dövründə baş verən siyasi bir hadisə olduğundan müstəqil Azərbaycanın siyasi taleyində son dərəcə həlledici idi. Keçid dövrü haqda həmişə unudulan, lakin xüsusi vurğulanmalı bir məqam var. Azərbaycanda keçid dövrü imperiya tərkibindən ayrlıb milli dövlət quruculuğuna keçmək xalqın taleyində nə dərəcədə əhəmiyyətli idisə, milli dövlət quruculuğunda emosioanal və regional siyasətdən rasional və qlobal siyasətə keçmək də həmin dərəcədə əhəmiyyətli idi.Məhz bu strategiya Heydər Əliyevin simasında və siyasi fəaliyyətində reallaşdı.

Azərbaycan Respublikası quruculuğundakı siyasi əxlaq əsasən bu üç mühüm strateji aspektləri əhatə edir:

İdioloji-mənəvi; hüquqi; iqtisadi-siyasi.

I. “Azərbaycançılıq” idelogiyasının bərpa və bərqərar edilməsi.

---

[28] Rəsulzadə M.Ə. “Azərbaycan Cümhuriyyəti”. Bakı: Elm, 1990, s 57.

II. Hüquqi dövlət konsepsiyasına əsaslanan "Azərbaycan Respublikası Konstitusiyası"nın yaradılması.

III. "Əsrin müqaviləsi"-nin imzalanmasıyla dövlətin sosial-iqtisadi inkişafı, (eyni zamanda, burada xarici investorların cəlbi məsələsi də xüsusi əhəmiyyət kəsb edir) milli təhlükəsizlik və xarici siyasət strategiyası. Azərbaycan Respublikası Konstitusiyası məhz elə "Azərbaycançılıq" ideologiyasının tərcumanı və qanuni akt formasıdır ki, millət olmanın ideoloji-hüquqi bazası olaraq hər bir Azərbaycan vətəndaşının ictimai-siyasi bütövlüyünü təmin edən hüquqi dövlətin qarantıdır. Çünki milli birliyi və siyasi sabitliyi təmin etmək dövlətin sosial-iqtisadi, ictimai-siyasi, hüquqi-mənəvi inkişafını, ən vacibi isə, milli təhlükəsizliyini qorumaqdır. Bunlar fərdilikdə hər bir vətəndaşın, bütövlükdə isə xalqın milli-siyasi maraqlarını ifadə edən siyasi əxlaq hadisələrdir. Bu, milli-siyasi maraqların reallaşması istiqamətində aparılan bütün fəaliyyətlərin və görülən tədbirlərin siyasi əxlaqla tənzimlənməsi, nəticədə bu gün inkişaf etməkdə olan müasir Azərbaycan Heydər Əliyevin həm lider, həm də siyasi rəhbər olmasının sübutudur.

Dissertasiyanın nəticə hissəsində tədqiqatın yekunu olaraq əldə edilmiş nəzəri-praktik əhəmiyyətli qənaətlər ümumiləşdirilmiş və tövsiyələr irəli sürülmüşdür.

**Dissertasiyanın məzmunu müəllifin aşağıdakı çap olunmuş elmi əsərlərində öz əksini tapmışdır:**

1. Qloballaşma və milli-mənəvi dəyərlər. AMEA -nın Aspiranların elmi konfrasının materialları.Bakı, “Elm”, 2009. 500-503 s.
2. Siyasi elmin tarixinə dair. Dünyaya baxış. Elmi-nəzəri-praktiki jurnal. Bakı, 2010. 37-48 s.
3. Siyasət, siyasi maraq və onun strukturu. Tarix və onun problemləri. BDU-nun jurnalı. Bakı,2010. № 1.143-151 s.
4. Şəxsiyyət siyasi marağın əsas subyekti kimi. Dirçəliş XXI əsr.147-148. Bakı, 2010. 219-231 s.
5. Dövlət siyasi marağın əsas obyekti kimi. Elmi əsərlər. AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Beynəlxaq elmi-nəzəri jurnalı. Bakı, 2010. № 1 (14) 255-259 s.
6.Sosial siyasət və siyasi əxlaq. Dirçəliş XXI əsr.158-159. 2010.297-307 s.
7. Siyasi əxlaq onun strukturu və səviyyələri. Tarix və onun problemləri. BDU-nin jurnalı. Bakı, 2011. №4. 134-150 s.
8. Siyasi maraq və siyasi əxlaq hüquqi dövlət və vətəndaş cəmiyyəti kontekstində. Dövlət və Din. İctimai fikir toplusu. Mart-Aprel. 2011. 35-40 s.
9. Siyasi əxlaqın fuhksional prinsipləri. Dövlət və Din. İctimai fikir toplusu. Noyabr-Dekabr. Bakı, 2011. 37-48 .
10.Azerbaycan Halk Cumhuriyeti Anlayışında Siyasi Ahlak. Erzinzan Üniversitesi Sosial Bilimler Enistitüsü Dergisi. ISSN 1308-6510. 2011. (IV) 1. 268-286 s.
11. Концепция политической морали Имам Али ибн Абу Талиба. Украинска Академия Наук. Гилея науковий висник. Винуск . Киев, 2011. 57 (№ 2). 361-365 с.
12. Azərbaycan Xalq Cümhuriyyəti Quruculuğunda Siyasi Əxlaq. AMEA-nın Tarix İnstitutu.Elmi Əsərlər. “Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin tarixi varisidir” mövzusunda beynalxalq elmi konfransın materialları. Xüsusi buraxlış. 38-ci cild. Bakı, 2011. 287-293 s.
13. Müasir Azərbaycan Respublikası quruculuğunda siyasi mədəniyyətin və siyasi əxlaqın əsas istiaqmətləri. Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Qloballaşma Şəraitində Kulturoloji

İnnovasiyalar və Sosial-Mədəni İnkişaf. Beynəlxalq konfrans materialları. 21-22 dekabr. Bakı, 2012. 399-403 s.

**Рушанзаде Рушан Алемшах оглы**

# ПОЛИТИЧЕСКИЕ ИНТЕРЕСЫ И ПОЛИТИЧЕСКАЯ МОРАЛЬ: ПРОБЛЕМ ВЗАИМОСВЯЗИ

## Р Е З Ю М Е

Представленная диссертационная работа состоит из введения, двух глав, семи параграфов, заключения и списка использованной литературы.

В первой главе «Проблема политических интересов в современной политической науке» рассматриваются парадигмы развития политических интересов и их идентификация с государством. Акцент ставится на том, что в гражданском обществе политические интересы должны находиться под верховенством Закона и во взаимосвязи с политической моралью правительства, или представленной общественностью политической элитой.

Во второй главе «Структура и уровни политической морали» теоретические концепции представлены в комплексе с прикладной политологией. Качественным фактором в политической этике обозначена политическая мораль. Требования политической морали направлены на нормальное функционирование государственной системы, включающей стабильное расширение и улучшение социальной и политической сферы. Достижение этого возможно посредством социального прогресса и интеллектуального развития политических субъектов, иными словами, посредством повышения образовательного и научного уровня последних.

Практическая значимость содержания второй главы заключается в действенности политической морали в Азербайджанской Демократической Республике и ее прав - преемника – современного Азербайджана, в котором эта идейная ценность рассматривается в трех аспектах:

I.«Азербайджанство» (восстановление и становление государственности);

II. Права (в рамках «Конституции Азербайджанской Республики»);

III. Достижения подписания «Контракта века» и его значение для социально-экономического развития страны, национальной безопасности и внешнеполитической стратегии.

В заключении автор приходит к выводу о том что, высокая политическая мораль, предусмотренная Конституцией Азербайджанской Республики, является гарантом защиты политических интересов граждан.

**Rushanzade Rushan Alamshah oglu**

# POLITICAL INTERESTS AND POLITICAL MORALITY: PROBLEM OF RELATIONSHIP

## SUMMARY

The presented dissertational work consists of the introduction, two heads, seven paragraphs, the conclusion and the list of the used literature.

In chapter 1 «A problem of political interests in a modern political science» paradigms of development of political interests and their identification with the state are considered. The accent is put that in civil society political interests should be under rule of law and in interrelation with political morals of the government, or the presented public political elite.

In chapter 2 «Structure and levels of political morals» theoretical concepts are presented in a complex with applied political science. The qualitative factor in political ethics designated political morals. Requirements of political morals are directed on normal functioning of the state system including stable expansion and improvement of the social and political sphere. Achievement of it is possible by means of social progress and intellectual development of political subjects, otherwise, by means of increase of educational and scientific level of the last.

The practical importance of the maintenance of chapter 2 consists in effectiveness of political morals in the Azerbaijani Democratic Republic and its right - the successor - modern Azerbaijan in which this ideological value is considered in three aspects:

I. “Azerbaijanism” (restoration and statehood formation);

II. The rights (in a framework of «the Constitution of the Azerbaijani Republic»);

III. Achievements of signing of «The contract of an eyelid» and its value for social and economic development of the country, national security and foreign policy strategy.

The author comes to the conclusion that high political morality envisaged by the Constitution of the Azerbaijan Republic is the guarantor of protection of political interests of citizens.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ, СОЦИОЛОГИИ И ПРАВА**

*На правах рукописи*

**РУШАНЗАДЕ РУШАН АЛЕМШАХ оглы**

# ПОЛИТИЧЕСКИЕ ИНТЕРЕСЫ И ПОЛИТИЧЕСКАЯ МОРАЛЬ: ПРОБЛЕМА ВЗАИМОСВЯЗИ

Специальность: 5908.01-теория политики

**А В Т О Р Е Ф Е Р А Т**

*диссертации на соискание ученой степени*
*доктора философии по политическим наукам*

**Баку-2013**